# Korporativ etika məcəlləsi və onun mahiyyəti

***Etika məcəlləsi*** fərd və ya kollektiv üçün nəzərdə tutulan davranış qaydaları və normalarıdır. Bu məcəllə vasitəsilə davranış modelləri, həmçinin qarşılıqlı münasibətlər və birgə fəaliyyətin vahid standartları müəyyən olunur. Hal-hazırda iki növ - peşə və korporativ etika məcəlləsi daha geniş yayılmışdır.

***Peşə etik məcəlləsi*** xarakterik xüsusiyyətləri daha qabarıq olan sahələr (vəkil, həkim, sosioloq və s.) üçün nəzərdə tutulur. İlk peşə etika məcəllələrindən biri Hippokrat andı - tibb işçilərinin etika məcəlləsi hesab edilir.

***Korporativ etika məcəlləsi*** üç funksiyanı həyata keçirmək imkanına malikdir:

- nüfuz;
- idarəetmə;
- korporativ mədəniyyətin inkişafı.

Birinci funksiya ictimai etimadın formalaşdırılmasını nəzərdə tutur (müştəri, podratçı, təchizatçı və s. ilə münasibətdə qurulmuş siyasətin beynəlxalq təcrübədə təsbit edilmiş şəkildə açıqlanması). Beləliklə, məcəllə korporativ PR aləti olmaqla, şirkətin investisiya cəlbediciliyini yüksəldir. Korporativ etika məcəlləsinin mövcudluğu artıq biznes aləmində ümumdünya standartına çevrilməkdədir.

İkinci funksiya mürəkkəb etik şəraitlərdə davranışların reqlamentləşdirilməsini (tənzimlənməsini) nəzərdə tutur. Əməkdaşların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi aşağıdakı yollarla həyata keçirilir:

- Qarşılıqlı münasibətlərdə prioritetlərin müəyyən edilməsi;
- Mürəkkəb etik şəraitlərdə qərarların qəbulolunma ardıcıllığının müəyyən edilməsi;
- Qeyri-məqbul davranış qaydaları üzrə tövsiyələr (göstərişlər).

Bundan əlavə, korporativ etika korporativ mədəniyyətin bir hissəsidir. Korporativ etika məcəlləsi - korporativ mədəniyyətin inkişafının əhəmiyyətli amillərindəndir. Bu məcəllə şirkətin dəyərlərini bütün əməkdaşlar ötürə, onları vahid korporativ məqsədlərə yönəldə bilər və bununla da korporativ mədəniyyətin inkişafı təmin olunar.

Məcəllənin məzmunu, hər şeydən əvvəl, şirkətin xüsusiyyətləri, strukturu, inkişaf məqsədləri, rəhbərliyin göstərişləri ilə müəyyən edilir. Adətən, məcəllə iki hissədən ibarət olur:

- ideoloji (məqsəd, hədəf, dəyər və s.);
- normativ (işgüzar davranış normaları).

Bununla belə, ideoloji bölmə məcəllədə nəzərdə tutulmaya da bilər.